Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarovun 30 sentyabr 2013-cü il tarixində mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2013-cü ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Lənkəran, Astara, Cəlilabad, Lerik, Masallı və Yardımlı rayonlarında yaşayan vətəndaşların qəbulu vaxtında dəyişiklik edilmişdir. Belə ki, təhsil naziri Mikayıl Cabbarov 19 oktyabr 2013-cü il tarixində saat 11:00-da Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Lənkəran, Astara, Cəlilabad, Lerik, Masallı və Yardımlı rayonlarında yaşayan vətəndaşları qəbul edəcək.

Qeyd edək ki, Təhsil Nazirliyinin "Qaynar xətt" xidmətinin 146 nömrəli telefonuna və ya office@edu.gov.az elektron poçt ünvanına müraciət edərək 30 sentyabr 2013-cü il tarixli qəbul üçün qeydiyyatdan keçmiş vətəndaşlar 19 oktyabr 2013-cü il tarixində qəbul ediləcəklər.

19 oktyabr 2013-cü il tarixində keçiriləcək qəbul haqqında əlavə məlumat veriləcəkdir.